# XALQLA ƏLAQƏLƏRİN TARİXİ

A.A.ADIGÖZƏLOV*

Dünyada xalqla əlaqələr bölməsinin tətbiq olunması tarixinin insanlıq tarixi qədər qədim olduğu məlumdur. Xalqla əlaqələr ifadəsi işlədilmədən əvvəl də xalqla əlaqələr tətbiqatda mövcud idi. Oxuma və yazmağın mövcud olmadığı qədim dövrlərdə, xalqla əlaqələrin tətbiqini təsirli bir şəkildə üz-üzə əlaqələr, nitq və məruzələr şəklində görürük. Çiçero (miladdan əvvəl 106-43), Domosten (miladdan əvvəl 383-32) xalq qarşısındakı açıq toplantılarda məşhur olmuş, xalqa təsir edən şəxslər olaraq meydana çıxmışlar.

Xalqla əlaqələrin əsasını meydana gətirən münasibət yaratmağa aid ilk modeli göstərən Aristodur. Aristonun "Rhetorik" adlı kitabında dinləyiciləri inandırmaq üçün dilin (nitqin) təsirli şəkildə işlədilməsinin vacibliyi göstərilməkdədir. Buna görə Aristonun "Rhetorik" adlı əsərini xalqla əlaqələr sahəsində yazılan ilk kitabı olaraq hesab edildiyini müdafiə edənlər də vardır.

Xalqla əlaqələr ifadəsinin ilk dəfə Amerika Birləşmiş Ştatları prezidenti Tomas Ceffersonun 1807-ci ildə konqresə göndərdiyi bəyanatda işlədildiyi məlumdur. Bu ifadə bugünkü mənasına ən yaxın şəkildə Yale Hüquq məktəbində hüquqşünas Eato tərəfindən 1882-ci ildə işlədilmişdir.

Xalqla əlaqələrin əhəmiyyətinin idarəetmə və müəssisələr cəhətindən çox mühüm olduğunun meydana çıxdığı dövr 1929-cu ilin Böyük Böhran dövrüdür. O günə qədərki əhəmiyyətli hadisələr, müharibə, prezident seçkiləri, yerli vəzifələr səbəbiylə müraciət edilən Böyük Böhranla birlikdə ABŞ-da, xüsusilə özəl sektor daxilində əhəmiyyətli bir yer tutmağa başladığını görürük. Böyük Böhranla bərabər özəl sektor mənfəətdən başqa bir şey düşünmədiyinin cəzasını çəkməyə başladı. Bu vaxt dövlət idarəsi də milli problemlərin bir bütün halında diqqətə alınması barədə qəti qənaətlərə gəlmiş oldu.

ABŞ-da 1916-cı ildə məşhur Con Rokfeller Yr-in məsləhətçisi (müşaviri) olaraq vəzifəyə başlayan jurnalist Yvu Lee ilk dəfə xalqla əlaqələr quran ilk şəxs kimi tanınır. Nəşr etdirdiyi bir sıra broşuralarla xalqla əlaqələrin xüsusi sektordakı ilk nümunələrini və prinsiplərini meydana çıxaran Yvu Lee xalqla əlaqələri məslək olaraq yerinə yetirən ilk şəxs olmuşdur. Xalqla əlaqələr sahəsində vurğulamaq istədiyimiz ilk şəxs Edvard L.Bernaysdır. Məşhur Siqmund Freydin qohumu olan Bernays xalqla əlaqələr sahəsinin atası olaraq qəbul edilə bilər. 1923-cü ildə Bernays xalqla əlaqələr sahəsində ilk əsərini – "İctimai fikrin müəyyən edilməsi"ni – nəşr etdi. Xalqla əlaqələ-

* İstanbul Mərmərə Universiteti

rin XX əsrdə daha çox əhəmiyyət qazanmasının səbəblərini, dövlət və xüsusi bölüm qruplarının ictimai məsuliyyət duyğularının güclənməsi ətrafdakılara qarşı daha diqqətcil olmalarına təsir imkanlarının artmasına, mübadilə (əlaqə yaratma) texnologiyasındakı böyük inkişaflara, dövlətin vəzifələrinin getdikcə çoxalmasına imkan verir.

Türkiyədə xalqla əlaqələrin tarixi keçmişinin çox əvvəlki zamanlara qədər getdiyi və xalqla əlaqələrin informasiya və tanıtma sahələrinin də, tarixin hər dövründə dəyişik şəkildə tətbiq olunduğu görülməkdədir. Göytürklərin Orxan abidələri, bu sahənin ilk nümunələri arasındadır. Səlcukluların böyük dövlət adamlarından olan Nizamülmülkün "Siyasətnamə" adlı əsərinin bəzi bölümlərində idarə edənlərin (hakimiyyətin) xalqın vəziyyəti haqqında doğru və kifayət qədər məlumat əldə etmələrinin vacibliyinə işarə olunmaqdadır. "Siyasətnamə"də xarici ölkə nümayəndəliklərinə və səfirliklərə göstəriləcək marağın əhəmiyyəti üzərində durulmaqda, bu şəxslərə göstərilən münasibətin təmsil etdikləri ölkəyə şamil ediləcəyi izah olunmaqdadır.

Səlcuklar dövründə hökmdarların həftənin müəyyən günlərində vaxtlarını xalqın şikayət və arzularına qulaq asmaq üçün ayırdıqları bilinməkdədir. Osmanlı dövründə bəzi səfirliklərin səyahətə dəvət edilmələri, Fatih zamanında tanınmış sənətçilərin, xarici ölkələrdən dəvət edilmələri və tərif eşitmələri, xalqın şikayətlərinin birbaşa vəzirlər və digər yüksək vəzifəlilər tərəfindən dinlənilməsi, idarə edənlər və idarə olunanlar arasında bağlantı əlaqələrinin yaradılmasının gözəl nümunələri olaraq göstərilməkdədir.

***Türkiyədə xalqla əlaqələr***

Türkiyədə xalqla əlaqələr bölümü xüsusi sektorun kifayət qədər inkişaf etməməsinə görə ilk dəfə dövlətə aid idarələrdə tətbiq olunmuşdur. Xalqla əlaqələr bölümünün tətbiq olunması bugünkü mənada ilk dəfə olaraq 1960-cı il inqilabından sonra yaradılan "Dövlət Planlaşdırma Təşkilatı Mətbuat və Təmsil Şöbəsi"ndə meydana gəldi. Əvvəlcədən dövlətə aid bəzi quruluşlarda tam olaraq Xalqla Əlaqələr Şöbəsi adlandıra bilməyəcəyimiz bəzi fəaliyyətləri icra edən kiçik şöbələr var idi. Lakin bunların fəaliyyəti təbliğat təəssüratı verirdi. TRT-də (Türkiyə Radio və Televiziya Komitəsi) bu şöbəyə "Xalqla Əlaqələr Protokol Şöbəsi" SSK-da (Sosial Sığorta Təşkilatı) "Mətbuat-Nəşriyyat və Tanıtma" adını daşıyırdı. Bunların vəzifələri Komitə və Təşkilatla əlaqədar çıxan xəbərlərin başlıqlarının kəsilib seçilməsi və saxlanmasından ibarət idi.

1962-ci ildə xalqla əlaqələr mövzusunda MENTAR (Mərkəzi Hökumət Təşkilatı Araşdırma Proyekti) olaraq adlanan bir proyekt var idi. Bu proyektdə "Dövlət idarələrinin hər sahəsində həyata keçirilən fəaliyyətlərdə və qərarların qəbul edilməsində xalqla yaxın əlaqə yaradılması məcburidir" deyilir və başqa ölkələrdəki xalqla əlaqələr fəaliyyətlərinə verilən əhəmiyyətin Türkiyədə də verilməsinin lazım olduğu vurğulanır.

1971-ci ildə dövlət bölməsinin ümumi istiqamətini və strategiyasını müəyyən etmək məqsədi ilə reform (islahat) hökumətinin proyekti ilə on nəfərdən ibarət İnzibati (idari) İslahat Məsləhət Şurası hazırlandı. Bu şura-

nın belə adlandırılmasının səbəbi məcburi hökumət dəyişikliyidir. Xalqla əlaqələr və informasiya xalqla yaxşı münasibətlər yaratmaq və davam etdirmək, xalqda hökumətə qarşı simpatiya oyandırmaq məqsədilə davam etdirilən fəaliyyətləri əhatə edirdi. Məqsəd xalqı maarifləndirmək idi. bütün bunlardan sonra 1984-cü ildə qanun qüvvəsində qərarnamə çıxarılaraq bütün xalqla əlaqələr təşkilatlarının bir yerdə, bir ad altında birləşdirilməsinə çalışılır. Nəticədə bu təşkilatlar Mətbuat və Xalqla Əlaqələr Müşavirliyi adı altında birləşdirilir.

Türkiyədə xalqla əlaqələrin xüsusi sektorda yaradılması 1960-cı illərin sonlarına təsadüf etməkdədir. 1969-cu ildən etibarən böyük holdinqlər ilə bəzi banklar xalqla əlaqələrin əhəmiyyətini qəbul etmişdilər. Bu gün lap çox böyük müəssisələrin ya Xalqla Əlaqələr Departamenti var, ya da müşavir agentlikləri vasitəsi ilə xalqla əlaqələr fəaliyyətlərini həyata keçirməkdədirlər.

Dövlət idarələrində dövlət işləri üç cür dövlət hüquqi şəxs şəklində qruplaşdırılmışdır. Bu hüquqi şəxslər: dövlət, yerli quruluşlar, ictimai (dövlət hüququ şəxslərindən biri olan yerli quruluşlar (idarələr) da üç ayrı şəkildədir). Türk bələdiyyəçiliyində, güclü sədr, onun əhatəsində yaradılan atmosfera xalqla əlaqələrin nöqteyi-nəzərincə çox əhəmiyyətlidir.

Dövlət quruluşlarında xalqla əlaqələr ifadəsinin inkişafının nəticəsi olaraq xüsusi bölmədə geniş yayılmış idarəçilik anlayışında, idarəetmənin ilk və təməl məqsədinin, quruluşun və ortaqların qazanclarının artması qədər ictimaiyyət üçün razılıq və rəğbət yaratmaq olduğunu vurğulayan bir inqilaba yol açmışdır. Buna görə də xalqla əlaqələrin iqtisadi, sosial və siyasi quruluşların rəhbərlərini, hər fəaliyyət sahəsində xalqın mənafeyini hər şeydən üstün tutan bir görüş və mövqe sərgiləyən idarəetmə fəlsəfəsi halına gəlmişdir.

Məsləyin "birinci"lərindən olan Raul Qarretin dediyi kimi, xalqla əlaqələrin "Şüurlu olaraq quruluşun fəaliyyətlərinə təsir edə biləcək hər qərarda, ictimai mənafeyi hər şeydən üstün tutan bir idarəçilik fəlsəfəsi və düşüncə idarəetməsidir".

Dövlət sistemi içində demokratiyanı "xalq tərəfindən, xalqın mənafeyi üçün qurulan xalq hakimiyyəti" deyə izah edən Linkoln və Verster kimi alim və yazıçıların, işadamlarının ictimaiyyətə bu gözlə baxmağa başlamalarında təsirli olduğu deyilə bilər. İş dünyasındakı bu düşüncə inkişafı, sənaye, ticarət və xidmət sektorlarına qurum (cəmiyyət) ifadəsini gətirmişdir.

***Xalqla əlaqələr sahəsində son tərəqqilər***

Məlumatlandırma dünyasındakı son fəaliyyətlər xalqla əlaqələr məsləyinə iki yeni ölçü Corporate R.R. və Marketinq P.R. kimi iki ifadəni meydana gətirmişdir. Bu fəaliyyətlər xalqla əlaqələr insanına xalqla əlaqələr ilə bir arada reklam müştəri xidmətləri, bazar araşdırmaları, satış sonrası xidmətlər, sponsorluq, məhsul P.R-i kimi müştəri xidmətinə yönələn fəaliyyətlərin kordinasiyası məsuliyyətlərini gətirmişdir. Özlərini illər boyu quruluşun ictimaiyyətdəki səsi olaraq görərək mal-xidmət təşviqatının əhəmiyyətini başa düşərək bu sahəni reklamçılara buraxan P.R. cavabdehləri,

Marketinq P.R. daxilində, Produkt P.R. deyilən vəzifə üçün də fəaliyyətlərə başlamışlar. Bu iki fəaliyyət sahəsi, persoption managent dərketmə idarəsi kimi bir ortaq ifadənin işlədilməsi sahəsində mübahisələrin başlanmasına yol açmışdır. P.R. məsləyindəki başqa fəaliyyətdə P.R-in üfüqdə hər hansı bir problem yox ikən tətbiq olunan və Proaktif P.R. deyilən görüntüsü ilə, böhran zamanlarında tətbiq edilməsi lazım olan və Reaktif P.R. olaraq adlandırılan görüntüsüdür. Böhran zamanı P.R. olaraq problemlər yumağı içində hazırlanması V.R. (Vulnerability Relations – Müdafiəsiz Əlaqələr) ifadəsini əmələ gətirmişdir. Proaktif P.R. ümumiyyətlə, cəmiyyət biçimi düşüncəsindən çıxarkən Reaktif P.R. məhsul P.R.-nə (Produkt P.R.) istiqamətlənmiş fəaliyyətlərə diqqət yetirir.

***Beynəlxalq Xalqla Əlaqələr Təşkilatı (İPRA)***

Qısaca İPRA (İnternational Putlic Realitions Assosiation) olaraq adlandırılan Beynəlxalq Xalqla Əlaqələr Təşkilatı, iki hollandiyalı, dörd ingilis xalqla əlaqələr mütəxəssisi 1949-cu ildə bir yerdə bir məslək ətrafında birləşmişlər. İPRA-nın əsas məqsədi olaraq, xalqla əlaqələr mütəxəssislərinin beynəlxalq bir təşkilat adı altında təşkilatlanmaları və müxtəlif ölkələrdəki fəaliyyətlərinin standartını, məslək fəaliyyətlərinin keyfiyyətcə artırılmasını və xalqla əlaqələrin təsir gücünün artırılmasının ana xətlərini müəyyən etmişdir.

Londonda bu rəsmi olmayan fəaliyyətdən sonra İngiltərə, Hollandiya, Norveç və Amerika Birləşmiş Ştatlarından bir qrup xalqla əlaqələr işləri rəhbərləri (idarəçiləri) 1950-ci ildə Hollandiyada **"Hollandiya Xalqla Əlaqələr Təşkilatı"nın** himayəsi altında birgə toplaşaraq məsləyin və əxlaq qaydalarının inkişaf etdirilməsi sahəsində fəaliyyət göstərmişlər. Bu fəaliyyətlərin nəticəsi olaraq **Beynəlxalq Xalqla Əlaqələr Təşkilatı İPRA** 1 may 1955-ci ildə London şəhərində yaradılaraq sədrlik vəzifəsinə ingilis Tom Klark seçilmişdir. Bu gün cəmi 60 ölkədən 800 üzvü olan bu təşkilatın məqsədi qısaca olaraq ölkələr arasında xalqla əlaqələr sahəsində bir-birini məlumatlandırmaq, bu məlumatlara öz köməkliklərini göstərmək və məslək standartını hər sahədə inkişaf etdirməkdən ibarətdir.

Bu sahədəki ikinci beynəlxalq təşkilat, mərkəzi Brüsseldə olan Avropa Xalqla Əlaqələr Mərkəzidir. Təşkilatın məqsədlərindən biri Ortaq Bazar ideyasının yayılması və müdafiə edilməsidir.

## ƏDƏBİYYAT


1. James B.Orrick., Halkla İlişkiler, tərc. Oğuz Onavan, Ankara: Av. S.B. F.B.Y.Y.O nəşriyyatı, №1, səh. 2.
2. Peltekoğlu, a.g.e., səh. 11-12.
3. Kazancı, a.g.e., s. 3.
4. Ertekin, a.g.e., səh. 4-8.
5. Salim Kadibeşegil. Halkla ilişkilerde Temel Bilgilər. İzmir , 1986, səh. 21.
6. A.g.e., s. 22
7. Alaediddin Asna, halkla İlişkiler. Bozak Nəşriyyatı, İstanbul, 1979, s. 104.
8. Tortop, a.g.e., s. 21.

9. A.g.e., s. 22-23.
10. Peltekoğlu, a.g.e., s. 31.
11. Ertekin, a.g.m., s. 3.
12. Asna, a.g.e., s. 3
13. Yenə orada
14. Bu barədə müfəssəl məlumat üçün bax: Alaeddin Ama, public Relations. Sabah broşüra. İstanbul, 1977, səh. 262-264.
15. Peltekoğlu. Ag.e., s. 32
16. A.g.e., səh. 33.
17. Alaeddin Asna, Public Relations Temel Bilgiler, 1933, s. 98.

**ИСТОРИЯ СВЯЗИ МЕЖДУ НАРОДАМИ**

**А.АДЫГЁЗАЛОВ**

**АННОТАЦИЯ**

Автор статьи опираясь на исторические факты обстоятельно излагает связи между народами разных национальностей.